

# Aşura hadisəsinin ibrətamiz dərsləri



# Aşura hadisəsinin ibrətamiz dərsləri

İslam peyğəmbəri (s.) insanların hidayəti və təkamülü yolunda çox qiymətli və dəyərli olan iki böyük əmanəti «Quranı və «əhli-beyti»ni miras qoyub ğetmişdir. Lakin dünyapərəstlərin,qəbilə tərəfkeşlərinin, vilayət xəttindən(ilahi idarəçiliyin davamçəlarından)uzaq düşənlərin və əziz PEyğəmbərimizin/s./ mənəviyyatına diqqətsizlik edənlərin (ğöstərənlərin) əməlləri - insanların düzgün yoldan azmasına və islam dininin təhrif olunmasına gətirib çıxardı.
Nəticədə isə -bəşəri dəyərləri və insan mənəviyyatını/dirçəltməyə/hidayət yolunu nişan verməyə ən layiqli bəndələrdən ibarət olan Peyğəmbərin ƏHli-beyti İslam aləmindəki mövqeyindən kənarda qaldı.
Və imam HÜSEYN bu ədalətsizliyə qarşı çıxaraq qiyam etdi.
Bu hərəkatı qəbul etməyən hökumət qeyri bərabər saylı döyüşə başlayaraq Kərbəla çölündə həzrət i və onun silahdaşlarını məzlumiyyətlə və susuz saxlayaraq qəddarcasına şəhadətə yetirdi. Bu hərəkat bizlərə haqqı tanıma, zülmə baş əyilməməyi, cəmiyyətə qarşı məsuliyyətli olmağı, azadlıq aşiqi olmaq kimi dərsləri öyrətdi.

## Haqqa tanımaq

Şübhəsiz ki hər bir azad insan haqqın tərəfdarıdır. Həzrəti Seyyidüşşühədanın yolunun davamçıları da həmişə haqqın tərəfində olmuş və haqsızlıqdan boyun qaçırmışlar.

Və bu yolda canlarından keçməyə belə hazır olmuşlar.Kərbəla yolunda imam Hüseyn /ə./ buyurdu:

**Məgər görmürsünüz ki,haqqa/düzgünlüyə/ riayət olunmur və batildən üz çevirmirlər**
**Belə vəziyyətdə möminlər gərək bu yaşayışı qəbul etməyib ALLAHIN bəyəndiyi yolu tutsunlar.**
**Mən zalımlarla yaşamağı ölümcül həyat, ölümü isə səadət bəxş edən həyat hesab edirəm.**

## Zillətdən uzaq

İmam Hüseyn /ə/ zalımın yanında rahat yaşamağı ya da ölümü seçməli olduqda, O həzrət şəhadəti seçdi:

**Ey filankəs, məni iki yoldan birini seçmək qarşısında qoymusan: qılınc ya da zillətə baş əymək. Heyhat! Zillət bizdən uzaqdır! Allah, onun Rəsulu, möminlər və pakdamənlər və qeyrətli ürəklər**
**Bu sifətlərin sahiblərinə şərafətli ölümü seçmək daha uyğundur**

## Təslimiyyət tabe olmaq haqqında

İnsanın kamal mərhələlərindən biri də səbr və razılıq məqamıdır. O vaxt ki bəndə özünü ilahi hikmət və məsləhət qarşısında tabe olaraq bütün həyatını qəzavü qədərin həqiqəti hesab edir, o zaman çox rahat yaşamağa davam edir. İmam Hüseyn/ə./ ömrünün ən çətin anlarını yaşadığı halda Kərbəlada elə dedi;

**Pərvərdigara, Sənin qəzavü-qədərinə şükr**

**edir, təkcə sənə ibadət edirəm. Ey fəryad edənlərin dadına. Çatan! İlahi, sənsən başqa mənim məbudum yoxdur. Sənin hökmünə səbr edirəm!**
**Ey o kəsin fəryadına səs verən ki, onun fəryadına.yetişən heç Kəs yoxdur. Ey əbədi və əzəli olan!**
**Ey ölüləri dirildən! Ey hər kəsi öz ələ gətirdiyi ilə ayağa qaldıran! Bizimlə onlar arasında hökm et.**
**Ey ən yaxşı hökm edən hakim!**

## İctimai məsuliyyətin daşıyıcısına çevrilmək

İnsan ictimai bir varlıqdır. Ona görə də cəmiyyətin xeyir və şər iş lərində məsuliyyət daşıyır Məsələn cəmiyyət içərisində bir pozğunluğu gördükdə, onu aradan qaldırmağa çalışmalıdır. İmam hüseyn/ə./ qardaşı Məhəmməd hənəfiyyəyə yazdığı məktubda belə bəyan edir:
**«Mən ona görə öz yurdundan çıxaraq -fəsad törətmək Zülm etmək üçün deyil, tam əksinə Cəddimin-ata babamın ümmətinin islah olması üçün. Əmr be məruf və nəhy əz münkər məqsədilə yürüş etmişəm.**



# İmam hüseynin qiyamına muxtəlif baxışıxlarda:

-١٩cu əsrdə yaşamış məşhur ingilis alimi və filosofu tomas karlayl demişdir hüseyin›in qələbəsi onun qoşununun sayının nisbətdə məni heyrətə gətirdi.onların imanı güclü idi və haq və batilin müqabilində sayın az və ya çox olmasının o qədər də əhəmiyyət kəsb etmədiyini sübuta yetirdilər.

Libiyanın muasir yazıçı və ədiblərindən biri corc cordağ belə deyir zəmanənin zalım hakimi yezid o vaxtki camaatı imam hüseyni öldürməyə rəğbətləndirəndə onlar soruşurdu ne qədər pul verirsən halbuki imam hüseynin səhabələri ona deyirdilər əgər yetmiş dəfə ölüb yenə də dirilsək yenədə səninlə birgə çiyin-çiyinə döyüşərdik.

Çek ölkəsinin müasir filosofu və siyasətşünas alimi tomas masarilk belə deyir gəlin bizdə imam hüseyn kimi istismarçıların əlindən canımızı qurtarıb xilas olaq və zillətdə yaşamaqdansa izzetli ölümün sorağına gedək.

**Hindistanın qəhrəman mübarizlerinin rəhbəri mahat maqandi:**
mən islamın uca məqamlı şəhidi imam hüseynin yaşayışı haqqında oxuyub diqqətlə mütaliə edərkən kərbəla səhnəsindən ilham aldım və mənə belə aydın oldu ki əgər hindistan ölkəsi qalib bir ölkəyə çevrilmək istəyirsə gərəkdir ki həzrət imam hüseynən nümunə götürərək onun yolu davam etdirsin..

موسسه بین المللی المرتضی

Almurtaza International Institution

مؤسسة المرتضى الدولية

## Əlavə məlumat üçün **QR kodunu** skan edin

www.ByIslam.com

